TURKPA

PARLIAMENTARY ASSEMBLY OF TURKIC-SPEAKING COUNTRIES

# SOSİAL, MƏDƏNİ VƏ HUMANİTAR MƏSƏLƏLƏR KOMİSSİYASI

## SƏKKİZİNCİ İCLAS

## “Pandemiya dövründə TÜRKPA üzvü ölkələrinin kənd ərazilərində sosial vəziyyət”

## TÖVSİYƏ QƏRARI

Parlament Assambleyası**:**

BMT-nin kəndlilərin və kənd ərazilərində fəaliyyət göstərən digər şəxslərin hüquqları haqqında bəyannaməsini, Ümumdünya Səhiyyə Təşkilatının 21 yanvar 2019-cu il tarixli, 1 dekabr 2020-ci il tarixində ictimaiyyət üçün yenilənən koronavirus xəstəliyinə (COVİD-19) dair tövsiyələri, 10 aprel 2020-ci il tarixində pandemiyaya qlobal reaksiya üzrə Türk Şurasının 8-ci Zirvə görüşünü ***nəzərə alaraq,***

Sosial inkişafın kənd cəmiyyətində hər bir fərdin rifahının yaxşılaşdırılmasına yönəldilməsi ilə hətta pandemiya zamanı belə kəndlilərin öz potensialını maksimum dərəcədə nümayiş etdirə bildikləri (Kəndin sosial həyatını gücləndirməklə, kəndlilərə dəstək olan fermerlər, çoxuşaqlı kəndli ailələri, gənc fermerlər, qadınlar, yaşlı insanlar və kənd təsərrüfatında əlillər tərəfindən kənd yerlərinin canlılığını təmin etmək, habelə pandemiya şəraitində kənd yerlərində innovasiya və rəqəmsallaşmanı artırmaq kollektiv məsuliyyətdir) ilə bağlı qlobal tezisi ***qəbul edərək,***

TÜRKPA üzv ölkələrinin kənd ərazilərinin böyük potensialını türkdilli ölkələrin unikal sosial-mədəni məkanının inkişaf vasitəsi kimi ***qəbul edərək,***

Sosial müdafiə sistemlərinin TÜRKPA üzv ölkələrinin kənd ərazilərində həyat şəraitinin qorunması üçün COVID-19-a cavab olaraq genişləndirilməsinin vacibliyini ***anlayaraq,***

Kəndli qadınların öz ailələrinin iqtisadi yaşayışında əhəmiyyətli rol oynadığını, kənd və milli iqtisadiyyata, o cümlədən iqtisadiyyatın qeyri-bərabər sektorlarında öz işləri ilə töhfə verdiklərini ***vurğulayaraq,***

TÜRKPA üzv ölkələrinin əməkdaşlığının üstünlüklərini, onların pandemiya şəraitində kənd sakinlərinin həyatının yaxşılaşdırılması və sadələşdirilməsi istiqamətində informasiya mübadiləsi və birgə fəaliyyətlərini ***dərk edərək,***

Yeni və ya geniş tədbirlərin işlənib hazırlanması və həyata keçirilməsi zamanı kənd əhalisinin, xüsusilə qadın və qızlar, yerli sakinlər, əlillər, yaşlı insanlar, miqrantlar və mövsümi işçilər kimi zəif yarımqrupların tələb və xüsusiyyətlərini nəzərə alınmasının vacibliyini ***diqqətə alaraq,***

Əməyin mühafizəsi və sağlamlıq tədbirlərinin həyata keçirilməsini və əlçatan olmasını təmin etməklə, yaşayış vasitələrinin qorunması və dəstəklənməsinin, gəlirləri qorumaq və mənfi mübarizə strategiyalarının qarşısının alınması üçün sosial müdafiə müdaxilələrinin birləşməsini və aqrar qida sistemi boyunca istehsalın dəstəklənməsi tədbirlərinin (məsələn, toxumların, heyvanların, balıq ovu torlarının və digər məhsulların paylanması; təlim; bazara giriş; kiçik istehsalçılardan dövlət satınalmaları) keçirilməsinin tələb ediləcəyini ***qəbul edərək,***

<u>Milli parlamentlərə aşağıdakı məsələləri nəzərdən keçirməyi tövsiyə edir</u>:

1) üzv ölkələr arasında kənd yerləri üzrə səmərəli regional və ikitərəfli əməkdaşlığın (ümumi qanunvericilik elektron platformalarının, model qanun layihələrinin, seminarların, müşavirələrin, birgə istehsalın, kənd festivallarının, ümumi layihələrin və TÜRKPA-nın üzvü olan ölkələrdə digər tədbirlərin dəstəklənməsi yolu ilə) genişləndirilməsinə yönəlmiş səylərin *göstərilməsi;*

2) kənd sosial həyatı ilə bağlı istənilən tədqiqat məlumatlarının *dəstəklənməsi*; TÜRKPA üzvü olan hər bir ölkənin qanunvericiliyinin pandemiya kimi fors-major halların nəzərə alınmaqla kənd sosial həyatında *araşdırılması;*

*3)* qüvvədə olan qanunvericiliyə və ya gələcək model qanunlara gigiyena, "sosial" məsafə, komendant saatı, səyahət məhdudiyyətləri, şəhərlərə giriş və çıxış üçün icazə tələbləri, natamam iş, evdən iş, səyahət edənlər üçün 14 günlük məcburi karantin və "evdə qalmağa" ümumi çağırış, vergilərin və ödənişlərin təxirə salınması, dövlət və könüllü sosial proqramlar, mobil tibbi xidmətlər, elektron kənd təsərrüfatı fermerləri üçün tibbi konsultativ xidmətlər, sosial yardım kimi pandemiyaya reaksiya ilə bağlı sosial məzmun əlavə etmək., kənd təsərrüfatında qadınlar, yaşlı və əlil şəxslər; pandemiya şəraitində kənd innovasiyalarının və rəqəmsallaşmanın stimullaşdırılması; Sosial sığorta tədbirlərinin həyata keçirilməsi (xəstəlik məzuniyyəti, tibbi sığorta və ya subsidiyalaşdırılmış mükafatlar verilməsi, töhfələrdən imtina, genişləndirilmiş pensiya proqramları və ya güzəştlər) kimi məsələlərin *əlavə edilməsi;*

*4)* kiçik fermerlərin, maldarların, balıqçıların və meşəbəyilərin, eləcə də türkdilli ölkələr arasında qida sahəsi ilə məşğul olanların dəstəkləməsi, hər bir ölkənin təcrübəsini öyrənmək üçün sosial tədbirlər və texnologiyalar sahəsində əməkdaşlıq səylərinin *gücləndirilməsi;*

*5)* kənd işçilərinin və əczaçıların yerli birliklərini səfərbər edilməsi, yerli icmaların COVID-19-un təsirləri ilə mübarizə aparmaq məqsədilə könüllü proqramların hazırlanması*;*

*6)* Kənd əraziləri də daxil olmaqla, pandemiya dövründə əhali üçün çətin ola biləcək qiymət artımı tendensiyasının *izlənilməsi;*

*7*) kəndlilər üçün vergi və bank kreditləri üzrə tənzimləmə normalarının sadələşdirilməsi; kənd təsərrüfatı məhsulları istehsalçıları üçün vergi siyasətinə yenidən baxılması, gəlir vergisinin

ödənişindən, satış vergilərindən azad edilməsi, hər hansı digər üstünlüklərin yenidən *nəzərdən keçirilməsi;*

*8)* Kənd yerlərində rəqəmsal vasitələrin əldə edilməsinin artırılması üçün rəqəmsal infrastruktura və eko-sistemə investisiyaları sürətləndirmək; Gələcəkdə TÜRKPA ölkələrinin ərazilərində yüksək keyfiyyətli kənd təsərrüfatı texnologiyalarının birgə istehsalına kömək edəcək dörd tərəfli Konsepsiyalar haqqında *düşünülməsi;*
*9)* kənd festivallarında TÜRKPA üzv ölkələrinin əməkdaşlığının böyük potensialının dərk edilməsi (onlayn rejim də daxil olmaqla);

*10)* mütəxəssislərin mübadiləsinin və onların aqrotexnologiyalar sahəsində ümumi fəaliyyətinin *təşviq edilməsi;*

*11)* TÜRKPA üzv ölkələrinin milli aqro şirkətləri arasında sosial mövzularda müxtəlif dialoqların *təşkil edilməsi;*

12) qadın və gənclərə xüsusi diqqət ayıran fermerlər üçün Türk aqroakademiyasının (elektron təhsil də daxil olmaqla) proqramını yaradılması; kənd təsərrüfatı istehsalçılarına və kənd təsərrüfatı məhsullarına dair məsləhətçilər üçün kənd təsərrüfatını idarəetmə sistemini işləyib hazırlanması, məsafədən zondlama, yüksək dəqiqliyə malik peyk naviqasiyası, geoinformasiya sistemləri və maşın öyrənmə texnologiyalarının *istifadəsi*;

*13)* əyalət idarələrinə baş çəkmədən fermerlərin elektron hökumət sistemi vasitəsilə qeydiyyata alınması üçün ərizələrin *verilməsi;*

*14)* kənd yerlərində daha güclü təhsil infrastrukturunun yaradılmasına dəstək verilməsinin zəruriliyini dərk ediməsi;

*15)* həyatın yaxşılaşdırılmasında sosial vasitə olaraq pandemiya şəraitində kənd yerlərində əmək bazarının şaxələndirilməsinə *kömək edilməsi;*

16) kənd ərazilərində müasir sosial mənzil konsepsiyasının *hazırlanması*;

17) Kənd ərazilərində pandemiya müddətində yaşlı, tənha təqaüdçülər, əlillər, sosial cəhətdən həssas qruplar üçün xidmət göstərən könüllü xidmətlərinin *dəstəklənməsi;*

18) Kənd ərazilərində tibb işçilərinə yardım və ölkədəki müxtəlif yerli xəstəxanalara 3D çaplı tibbi cihazlar bağışlamaq məqsədilə açıq mənbəli proqram təminatı həllərinin siyahısının hazırlanması; xəstəxanaların rəqəmsal xəritəsinin yaradılması; təcrübəli terapevtlər vasitəsilə karantin zamanı psixoloji sağlamlığını idarə etməyə çalışan insanlara dəstək və ilkin psixoloji yardımın göstərilməsi üçün pulsuz telefon xəttinin yaradılması;

19) kənd təsərrüfatı məhsulları ixracatçıları üçün marketinq və logistika xərclərini ödəyən ilkin sektorlara (gübrələr, pestisidlər) girişin qorunması;

20) ödəniş edilmədiyi təqdirdə xidmətlərin dayandırılmamasının təmin edilməsi məqsədilə ixtisaslaşmış kənd inkişafı vauçer proqram ofisi vasitəsilə birbaşa və zəmanətli çoxölçülü vauçerlərin yaradılması;

21) elektron hökumət platforması çərçivəsində müəssisələrə və şəxsi bizneslə məşğul olan şəxslərə ilkin ödənişin təxirə salınması ehtimalı ilə borcların ödənilməsinə imkan verən maliyyə yardımının göstərilməsi;

22) "Kənd yerlərinin davamlı inkişafı haqqında" federal qanun layihəsi hazırlanması məqsədilə COVID-19 sonrası dünyada vəziyyətə dair vətəndaşların fikirlərini toplanması;

23) Kənd ərazilərində baytarlıq və fitosanitar təhlükəsizliyi inkişaf etdirmək; ucqar kənd yerləri üçün mobil tibbi qatarların təşkil edilməsi fikirlərinin dəstəklənməsi;

24) Kənd ərzilərinin səyyar tibbi komplekslər və tibbi qatarlar, habelə səyyar baytarlıq laboratoriyaları ilə təmin edilməsi;

25) məktəbəqədər uşaqların inkişafı üçün xüsusi məktəbəqədər proqramlar çərçivəsində distant təhsilin inkişaf etdirilməsi

26) uşaqlar üçün sosial proqramların hazırlanması: a) bir yaşdan altı yaşa qədər uşaqlar - ünvanlı sosial yardımın təyin edildiyi dövrdə (ayda bir dəfə məhsul dəsti, rübdə bir dəfə ev kimyəvi maddələr dəsti); b) altı ilə səkkiz yaş arası uşaqlar - müvafiq tədris ili ərzində: məktəb forması və ya idman geyim dəsti və yazı alətləri dəsti; - tədris ili ərzində bir dəfə isti yeməklə təmin olunması;

27) səhiyyə təşkilatlarının mobil tibbi personalla təmin edilməsi;

28) Kənd ərazilərində Koronovirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə səhiyyə müəssisələrinin həkim-rezidentlərinin cəlb edilməsi ilə çağrı mərkəzlərinin işini təşkil edilməsi;

29) kənd əhalisinə tibbi yardımın göstərilməsinin effektiv modelinin yaradılması, tibbi yardımın əlçatanlığının yaxşılaşdırılması, kadr təminatının yaxşılaşdırılması, kənddə obyektlərin tikilməsi və kənd səhiyyəsinin rəqəmsallaşdırılması üzrə mümkün ümumi yol xəritəsinə dair məsələlərə baxılması;

30) kənd ərazilərində onlayn xidmətin göstərilməsi məqsədilə virtual e-poçt kartlarının tətbiq edilməsi.